C) Qiymət xərclər əsasında deyil, xərclər qiymət əsasında müəyyənləşdirilir

D) Qiymət qaimə qiymətlərinə görə dəyişdirilir

E) Mövsümə uyğun olaraq məhsulun qiyməti dəyişdirilir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.T. Məmmədov. Marketinqin əsasları. Bakı, 2007.s.138

122. Kompromis təhlil əsasında qiymətqoyma metoduna hansı cavab aiddir?

A) Bu metodda hər bir məhsulun qiyməti həlledici dərəcədə tərtib edilmiş marketinq strategiyasından asılıdır

B) Bu metodla müəyyən edildikdə alıcılar arasında sorğu aparmaqla onların həmin məhsulu hansı qiymətə almağa razı olduqları öyrənilir

C) Bu metotda məhsulun satış qiyməti istehlakçının onun atributlarına, xüsusiyyətlərinə rəğbət səviyyəsindən asılı olaraq müəyyən edilir

D) Bu metodda məhsulun qiyməti müəssisənin strateji məqsədlərindən. asılıdır

E) Bu metodda məhsulun qiyməti məhsulun bölüşdürməsindən, differensiallaşdırılmasından asılıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.T. Məmmədov. Marketinqin əsasları. Bakı, 2007.s.139

123. Tənzimlənən qiymət dedikdə nə nzərdə tutulur?

A) Səviyyəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən qiymətdir

B) Tələb və təklif əsasında tərəflərin qarşılıqlı razılığı ilə müəyyən olunan qiymətdir

C) Tender nəticəsində müəyyən olunan qiymətdir

D) Auksion nəticəsində müəyyən olunan qiymətdir

E) Alqı - satqı nəticəsində sövdələşmə ilə müəyyən olunan qiymətdir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Tənzimlənən qiymətlər haqqında Azərbaycan Qanunu.Bakı şəhəri, 30 may 2003-cü il № 462-IIQ.m.2.

124. Balanslaşdırma (mütənasib və son məhsuldarlıq həddi) prinsipinin mahiyyəti nədən ibarətdir?

A) Bu prinsipin mahiyyəti qiymətləndirmə obyektinin dəyərinə onu əhatə edən əmlak növlərinin xarakterinin və dəyərinin təsirindən ibarətdir

B) Bu prinsipin mahiyyəti əmlakın müştərinin zövqünə və yerli bazarın ənənələrinə uyğunluğundan ibarətdir

C) Bu prinsipin mahiyyəti istənilən mülkiyyət növü üzrə istehsal amillərinin düzgün əlaqələndirilməsindən ibarətdir

D) Bu prinsipin əsas mahiyyəti təbii sərvətlərin, eləcə də torpaq sahələrinin məhdudluğu ilə bağlıdır

E) Bu prinsip - obyektin bazar dəyəri məqsədli sürətdə həyata keçirilən və obyektin dəyərini formalaşdıran yeni vəsait qoyuluşu amilinin təsiri ilə artır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kazımlı.X. Qiymətləndirmənin əsasları. Bakı, 2008.s.72

125. Mülkiyyətə əmlak hüququnun iqtisadi bölgüsü və birləşdirilməsi prinsipinin mahiyyəti nədən ibarətdir?

A) Əmlakın Mülki Məcəllədə nəzərdə tutulan əmlak hüququ sisteminə uyğun surətdə bölüşdürülməsi, icarəyə verilməsinə və s.

B) Mülkiyyət növü üzrə istehsal amillərinin düzgün əlaqələndirilməsi

C) Əmlakın müştərinin zövqünə və yerli bazarın ənənələrinə uyğunlaşdırılması

D) Qiymətləndirmə obyektinin dəyərinə onu əhatə edən əmlak növlərinin xarakterinin və dəyərinin təsirinin nəzərə alınması

E) Təbii sərvətlərin, eləcə də torpaq sahələrinin məhdudluğunun nəzərə alınması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kazımlı.X. Qiymətləndirmənin əsasları. Bakı, 2008.s.72

126. Bazis qiyməti nədir?

A) Xarici ticarət qiymtəi müəyyən edilərkən əsas kimi qəbul olunan qiymətdir

B) Tələb və təklif nəticəsində yaranan və dövlətin təsiri ilə tənzimlənən qiymətdir

C) Birja sövdələşməsinin buraxılış qiymətdir

D) Tikintinin smeta dəyəridir

E) Azad və dövlətin təsiri olmayan qiymətdir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.D.Çudakov. Qiymət və qiymətin əmələ gəlməsi. Dərslik. Bakı, 2009 .s.36

127. Müəyyən əmtəələrin hər hansı regionda satışını stimullaşdırmaq üçün, bazarda ayrı-ayrı alıcılar qrupu üçün müəyyən qiymət ucuzlaşması, hansı növ qiymətlərə adiddir?

A) Güzəştli qiymət

B) Reqional qiymət

C) Sərbəst qiymət

D) Tənzimlənən qiymət

E) Bazis qiymət

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.D.Çudakov. Qiymət və qiymətin əmələ gəlməsi. Dərslik. Bakı, 2009 .s.39

128. Statistik təhlil və standart prosedurlardan istifadə etməklə çoxlu sayda obyektlərin müəyyən tarixə olan dəyərinin sistematik qiymətləndirilmə hansıdır?

A) Kütləvi qiymətləndirmə

B) Statistik qiymətləndirmə

C) Fərdi qiymətləndirmə

D) Analitik qiymətləndirmə

E) Standart qiymətləndirmə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kazımlı.X. Qiymətləndirmənin əsasları. Bakı, 2008.s.8

129. Qiymətləndirici tərəfindən obyektin qiymətləndirilməsi üçün əsas sənəd nədir?

A) Sifarişçi ilə bağladığı müqavilədir

B) Xidmət ödənişi qəbzi

C) Müəssisə rəhbərinin əmri

D) Şifahi razılıq

E) Vergilər orqanından göstıriş

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununu. Bakı şəhəri, 25 iyun 1998-ci il. M.6.

130. Qiymətləndirici hesabatında qiymətləndirilən obyektin bazar və digər dəyərinin həqiqiliyi ilə əlaqədar mübahisələrə hansı qurumda baxılır?

A) Məhkəmə

B) Vergi orqanları

C) Hesablama palatası

D) Əmlak məsələləri dövlət xidməti

E) Auditorlar palatasında

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununu. Bakı şəhəri, 25 iyun 1998-ci il. M.8.

131. Gələcək pul axınlarının biznesin bazar dəyərinin müəyyən edilməsi üçün baza sayılan cari dəyərin vahid kəmiyyətinə yenidən hesablanması məqsədilə istifadə olunan faiz dərəcəsi hansı anlayışla ifadə edilir?

A) Diskont dərəcəsi

B) Likvidlik dərəcəsi

C) Korektiv dərəcə

D) Baza dərəcəsi

E) Qordon əmsalı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: BİZNESİN (MÜƏSSİSƏNİN) QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ
M E T O D İ K G Ö S T Ə R İ Ş L Ə R. Azərbaycan Respublikasının
Auditorlar Palatası Şurasının
2016-cı il 21 noyabr tarixli
281/3 nömrəli qərarı ilə təsdiq edilmişdir. S.9.

132. M.Porterin 5 rəqabət gücünün «qızıl qaydası» mahiyyəti hansı cavabda düzgün göstərilib?

A) Rəqabət güclərinin təsiri nə qədər zəif olarsa, kompaniyanın yüksək gəlir əldə etmək imkanları bir o qədər çox olar

B) Rəqabət güclərinin təsiri nə qədər zəif olarsa,kompaniyanın yüksək gəlir əldə etmək imkanları bir o qədər az olar

C) Hər hansı firma qiymətin yaranması prosesinə təsir edə bilməz

D) Qiymətin yaranmasının əsas şərti rəqabərlilikdir

E) Rəqabətsizlik iqtisadiyyatın dayaniqlı inkişafın təmin edir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Hüseynova X.M., Quliyev M.Y. QLOBAL RƏQABƏTLİLİK. Bakı:"Müəllim' nəşriyyatı, 2016.s. 23

133. Əvvəllər müxtəlif həyat sferalannın (təhsil, idarəetmə, əməyin təşkili, elm, informasiya və s. sferalar) yenilənməsinə tətbiq olunmamış yeni bilik və ideyaların işlənilməsində, investisiyalaşdınlması sahəsində intellektual qərarlann nəticəsi hesab olunan anlayış hansı variantda düzgün qeyd edilib?

A) Bazar fəaliyyəti

B) Elmi tədqiqat

C) İstehsalçı fəaliyyəti

D) İnnovasiya

E) Logistik

Testin çətinlik dərəcəsi: asan

İstinad: Hüseynova X.M., Quliyev M.Y. QLOBAL RƏQABƏTLİLİK. Bakı:"Müəllim' nəşriyyatı, 2016.s. 30

134. Normal bazar şəraitində oxşar obyektlər haqqındakı sövdələşmələrə və satışa aid məlumatlara istinad edən  obyektin qiymətləndirmə üsulu hansıdır?

A) Xərclər üsulu

B) Rəqbət üsulu

C) Sövdələşmə üsulu

D) Nizamnamə fondu üsulu

E) Müqayisəli yanaşma üsulu

Testin çətinlik dərəcəsi: orta

İstinad: Kazımlı.X. Qiymətləndirmənin əsasları.  Bakı, 2008.s.198

135. İstifadə müddəti başa çatdıqdan sonra əmlakın satıldığı dəyər necə adlanır?

A) İnovassiya dəyəri

B) Silinmə dəyəri

C) Reversiya dəyəri

D) Amotizasiya dəyəri

E) Auksion qiyməti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Kazımlı.X. Qiymətləndirmənin əsasları. Bakı, 2008.s.412.

136. Beynəlxalq ticarətdə komissiya müqavilələrində komitentlərin komissionerlərin sərəncamına verdikləri malların qorunub saxlanmasında cavabdehliyi kim daşıyır?

A) Komitent

B) Komissioner

C) Alıcı

D) İstehsalçı

E) Broker

Testin çətinlik dərəcəsi: orta

İstinad: Qəribov A., Əzizov A., Əhmədova S. Beynəlxalq ticarət əməliyyatları. Dərslik. Bakı, 2017, səh. 120

137. Konsiqnasiya tipli komissiya müqviləsində "konsiqnator " kim sayılır

A) Vasitəçi

B) Satıcı

C) Broker

D) Tenderçi

E) Adventor

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Qəribov A., Əzizov A., Əhmədova S. Beynəlxalq ticarət əməliyyatları. Dərslik. Bakı, 2017, səh. 121

138. Satış paylama kanalında istehsalçı , topdan satış , pərakəndə satış və istehlakçı bəndləri olarsa bu hansı səviyyəli kanal sayılır?

A) "Sifir səviyyəli" kanalı

B) "Birinci  səviyyəli" kanalı

C) "İkinci  səviyyəli" kanalı

D) "Üçüncü  səviyyəli" kanalı

E) "Dördüncü  səviyyəli" kanalı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Filip Kotler. Marketinq Menecmenti. Bakı, 2008.s.350

139. Əmtəələrin (malların) xarici tərəfdaşlardan alınması və ölkəyə gətirilməsi hansı əməliyat hesab olunur?

A) Tranzit  əməliyyatı

B) Reixrac əməliyyatı

C) İxrac əməliyyatı

D) İdxal əməliyyatı

E) Reidxal əməliiyatı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Qəribov A., Əzizov A., Əhmədova S. Beynəlxalq ticarət əməliyyatları. Dərslik.  Bakı, 2017, səh. 130

140. Sifarişçi tərəfindən obyektin tikintisinin texniki-iqtisadi əsaslandırılması və tender şərtlərinin hazırlanması məqsədi ilə cəlb edilmiş ixtisaslaşmış şirkət necə adlanır?

A) Adventor şirkəti

B) Supodratşı şirkət

C) Broker şirkəti

D) İnovassiya şirkəti

E) İnjinirinq şirkəti

Testin çətinlik dərəcəsi: asan

İstinad: Qəribov A., Əzizov A., Əhmədova S. Beynəlxalq ticarət əməliyyatları. Dərslik.  Bakı, 2017, səh. 146

141. Hansı şərt satıcının, əmtəənin alıcı tərəfindən fraxtlaşdırılan gəminin bortuna çatdırılması vəzifəsini nəzərdə tutur. Əmtəənin gəminin bortuna qədər daşınmasına kimi bütün xərclər və risklər satıcının üzərinə düşür.

A) EXW (ex works)

B) DDP(Delivered Duty Paid)

C) CİP(Carriage And Insurance Paid To)

D) FAS(Free Alongside Ship)

E) DAP(Delivered at Place)

Testin çətinlik dərəcəsi: asan

İstinad:
http://www.iccwbo.org/products-and-services/trade-facilitation/incoterms-2010/the-incoterms-rules/

142. CFR Cost and Freight / Dəyər və Fraxt şərtli müqavilə hansı nəqliyyat növü üçün tərtib edilə bilir?

A) Avtomobil

B) Aviassiya

C) Qatar

D) Boru

E) Dəniz

Testin çətinlik dərəcəsi: asan

İstinad:
http://www.iccwbo.org/products-and-services/trade-facilitation/incoterms-2010/the-incoterms-rules/

143. Məhsulların istehsalçıdan istehlakçıya çatdırılması üçün onların fiziki yerdəyişməsi bölüşdürmə axınlarının hansı növünə aiddir?

A) Pul axınları

B) İnformasiya axınları

C) Mülkiyyət hüquqları axınları

D) Sifarişlərin axını

E) Fiziki axınlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinqin əsasları. Bakı, 2014. səh.40-56

144. Məhsulun mülkiyyət hüququnun bir təşkilatdan digər təşkilata keçidi bölüşdürmə axınlarının hansı növünə aiddir?

A) Sifarişlərin axını

B) Fiziki axınlar

C) İnformasiya axınları

D) Pul axınları

E) Mülkiyyət hüquqları axınları

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinqin əsasları. Bakı, 2014. səh.40-56

145. Satıcı malı razılaşdırılmış yükləmə limanında alıcının təyin etdiyi gəminin göyərtəsində yerləşdirdikdən yaxud yerləşdirilməsini təmin etdikdən sonra çatdırıldığını bildirdiyi İnkoterms şərti hansıdır?

A) FOB (...named port of shipment)

B) «DAT (...named terminal of destination)»

C) «DDP (...named place of destination)

D) CIF - Cost, Insurance and Freight (...named port of destination)

E) FCA - Free Carrier (...named place)

Testin çətinlik dərəcəsi: asan

İstinad: «Incoterms» Ticarət terminlərinin təfsirinin Beynəlxalq Qaydaları. Azərbaycan dilində. Bakı: 2015.46

146. Alıcının satın aldığı məhsulların dəyərini ya banklar vasitəsi ilə ya da biləvasitə satıcıya ödəməsi bölüşdürmə axınlarının hansı növünə aiddir?

A) Mülkiyyət hüquqları axınları

B) İnformasiya axınları

C) Sifarişlərin axını

D) Fiziki axınlar

E) Maliyyə  axınları

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinqin əsasları. Bakı, 2014. səh.40-56

147. İstehsalçının və (və ya) vasitəçilərin təşəbbüsü ilə məlumatın  istehlakçıya, həmçinin istehlakçıdan istehsalçıya və (və ya) vasitəçiyə çatdırılması bölüşdürmə axınlarının hansı növünə aiddir?

A) İnformasiya axınları

B) Mülkiyyət hüquqları axınları

C) Sifarişlərin axını

D) Pul axınları

E) Fiziki axınlar

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinqin əsasları. Bakı, 2014. səh.40-56

148. Françayzinqlər hansı marketinq sistemində istifadə edilir?

A) Şaquli

B) Üfüqi

C) Çoxkanallı

D) Ənənəvi

E) İntensiv

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 356.

149. Satış kanalının effektliliyinin yüksəldilməsinə onun müxtəlif səviyyələrinin iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi hesabına yox, eyni səviyyəli iştirakçıların əaliyyətinin əlaqələndirilməsi hesabına nail olunması hansı hansı marketinq sisteminin səciyyəvi xüsusiyyətidir?

A) Eksklüziv

B) Ənənəvi

C) Şaquli

D) Çoxkanallı

E) Üfüqi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 357.

150. Kanalın iştirakçılarından hər hansı biri idarəetmə sahəsində təcrübəsinə əsaslanmaqla kanala nəzarəti və kanal iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsini öz üzərinə götürür və şərtlərini kanalın digər iştirakçılarına diktə edirsə söhbət hansı marketinq sistemindən gedir?

A) İnzibati

B) Üfüqi

C) Kontrakta əsaslanan

D) Ənənəvi

E) Selektiv

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 356.

151. Məhsulun satın alınması anında alıcıya qiymət güzəşti hüququ verən sertifikat necə adlanır?

A) Kupon

B) Lotereya

C) İnvoys

D) Qaimə

E) Sprint

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 356.

152. Satış xidmətinin hansı əməkdaşının əsas vəzifəsi yalnız məhsulun çatdırılmasından ibarətdir?

A) Paylayan (logist)

B) Texniki məsləhətçi

C) Missioner

D) Menecer

E) Hazır məhsulun satıcısı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Filip Kotler. Marketinq Menecmenti. Bakı, 2008.səh 427.

153. Satış xidmətinin hansı əməkdaşının əsas vəzifəsi potensial istehlakçılarla qarşılıqlı münasibətlərin formalaşdırılmasıdır?

A) missioner (Səxsi satişçi)

B) Paylayan

C) Texniki məsləhətçi

D) Hazır qərarların satıcısı

E) Menecer

Testin çətinlik dərəcəsi: asan

İstinad: Filip Kotler. Marketinq Menecmenti. Bakı, 2008.səh 427.

154. Müştəri-kompaniyaya məsləhət verilməsini həyata keçirən mühəndis satış xidmətinin hansı əməkdaşı sayılır?

A) Texniki məsləhətçi

B) Menecer

C) Paylayan

D) Missioner

E) Hazır qərarların satıcısı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Filip Kotler. Marketinq Menecmenti. Bakı, 2008.səh 427.

155. Əmtəənin birinci növbəli qəbuledicilərinin və əmtəə defisitinin dövrlərinin müəyyənləşdirilməsi prosesi necə adlanır?

A) Allokasiya

B) Sınaq

C) Autsorsinq

D) Profitizasiya

E) Ammortizasiya

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Filip Kotler. Marketinq Menecmenti. Bakı, 2008.səh 427.

156. Baş şirkəti bir ölkənin kapitalına məxsus olan flialları isə bütün dünyada səpələnən şirkətlər necə adlanır?

A) Milli şirkətlər

B) Beynəlxalq qrup

C) Transmilli şirkətlər

D) Çoxmilli şirkətlər

E) Daxili təşkilatlar

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s113

157. İstehsalın təkmilləşdirilməsi konsepsiyası nə zaman tətbiq edilə bilər?

A) Tələb təklifdən üstün olduqda

B) Təklif tələbdən üstün olduqa

C) Alış tələbdən üstün olduqda

D) Tələbat azaldıqda

E) Təklif azaldıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.32

158. Beynəlxalq bazarlarda qiymətlərin tələb və təklif əsasında formalaşması necə adlanır?

A) İctimai dəyər

B) Xüsusi dəyər

C) Tələb dəyəri

D) Təklif dəyəri

E) Konyuktura dəyəri

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.41

159.
Bir təşkilatçının məsuliyyəti altında bir neçə nəqliyyat növünün vasitəsi ilə yerinə yetirilən daşıma prosesi hansıdır ?

A) Filder daşıma

B) Kabotaj daşıam

C) Unimodel daşıma

D) Multimodal daşıma

E) İntermodel daşıma

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.42

160. Vahid ticarət siyasəti həyata keçirmək üçün firmaların birləşməsi necə adlanır?

A) Beynəlxalq kartellər

B) Milli şirkətlər

C) Çoxmilli şirkətlər

D) Transmilli şirkətlər

E) Milli karterlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.116

161. İdarəetmənin  inzibati  stili hansı inteqrassiya növünə aiddir?

A) Şaquli inteqrasiya

B) Üfiqi inteqrasiya

C) Əyrixətli inteqrasiya

D) Düzxətli inteqrasiya

E) Nəzəri inteqrasiya

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.281

162. Geri şaquli inteqrasiya prosesində şirkət nə edir?

A) Firmaları zəiflədir

B) Köhnə firmaları böyüdür

C) Yeni firmaları ləğv edir

D) Köhnə firmaları ləğv edir

E) Yeni firmalar yaradır

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.282

163. İrəli şaquli inteqrasiyada prosesində firmalar nə edir?

A) Yeni fliallar açır

B) Yeni firmalar yaradır

C) Köhnə flialları böyüdür

D) Yeni flialları zəilədir

E) Köhnə flialları inkişaf etdirir

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.282

164. "Zəncirin"  eyni səviyyədə əlavə işgüzar fəaliyyət növlərinin qazanılmasına nə deyilir?

A) Üfiqi inteqtasiya

B) Şaquli inteqtasiya

C) Düzxətli inteqrasiya

D) Əyrixətli inteqrasiya

E) Elmi inteqrasiya

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s.283

165. İxrac potensialının formalaşması və inkişafını müəyyən edən əsas amil hansıdır?

A) Ölkədə təbii resursların mövcudluğu

B) Təbii resursların olmaması

C) Sənaye müəsslərinin olmaması

D) Sərt idarəetmə sistemi

E) Mərkəzləşmiş idarə sistemi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s. 180.

166. Bir satıcı öz arzusunu diktə edən,öz başına olaraq rəqiblərin maraqlarını nəzərə almayaraq qiymət səviyyəsinin müəyyən edə bildiyi bazar necə adlanır?

A) Monpolistik rəqabət bazarı

B) Mükəmməl rəqabət bazarı

C) Xalis inhisar rəqabət bazarı

D) Firmadaxili rəqabət bazarı

E) Xalis rəqabət bazarı

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s. 185.

167. Dünya bazarında satılan məhsulların beynəlxalq dəyərinin pulla ifadəsi necə adlanır?

A) Indikativ qiymətlər

B) Bazis qiymətlər

C) Dünya qiymətləri

D) Obyektiv qiymətlər

E) Sabit qiymətlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: A.C.Vəliyev "Beynəlxalq marketinq" Bakı-2017.s. 192..

168. Faktiki satış göstəricilərinin uyğun plan
göstəriciləri ilə müqayisə edilməsi, ölçülməsi və qiymətləndirilməsi prosesi necə adlanır?

A) Satış imkanlarının təhlili

B) Satış prosesi

C) Allokasiya

D) Autsorsinq

E) Büdcənin planlaşdırılması

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ş.Ə.Axundov. Beynəlxalq marketinq. Bakı, 2005 səh. 195-201

169. Əmtəənin birbaşa
İstehsalçıdan istehlakçıya satılması hansı bölgü kanalı üçün səciyyəvidir?

A) İkisəviyyəli kanal

B) Birsəviyyəli kanal

C) Sıfırıncı səviyyə kanalı

D) Üçsəviyyəli kanal

E) Dördsəviyyəli kanal

Testin çətinlik dərəcəsi: orta

İstinad: Ş.Ə.Axundov. Beynəlxalq marketinq. Bakı, 2005 səh. 195-201

170. Vasitəçilərin ticarət şəbəkəsini əhatə etmə səviyyəsi satış kanallarına təsir edən hansı amillər qrupuna aiddir?

A) Bilavasitə vasitəçiləri xarakterizə edən
amillər

B) Məhsulun xüsusiyyətinə aid olan amillər

C) Bazarın və ya istehlakçıların xüsusiyyətinə aid olan amillər

D) Nəqliyyat xərcləri amilləri

E) İstehsalçı müəssisənin xüsusiyyətlərini xarakterizə edən amillər

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 386.

171. Şirkətin təşkilatı strukturu satış kanallarına təsir edən hansı amillər qrupuna aiddir?

A) Məhsulun xüsusiyyətinə aid olan amillər

B) Bilavasitə vasitəçiləri xarakterizə edən amillər

C) İstehsalçı müəssisənin xüsusiyyətlərini xarakterizə edən amillər

D) Bazarın və ya istehlakçıların xüsusiyyətinə aid olan amillər

E) Nəqliyyat-tədarükat xərcləri amilləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 387.

172. Məhsulun satış şərtləri satış kanallarına təsir edən hansı amillər qrupuna aiddir?

A) Bilavasitə vasitəçiləri xarakterizə edən amillər

B) Nəqliyyat-tədarükat xərcləri amilləri

C) Bazarın və ya istehlakçıların xüsusiyyətinə aid olan amillər

D) Məhsulun xüsusiyyətinə aid olan amillər

E) İstehsalçı müəssisənin xüsusiyyətlərini xarakterizə edən amillər

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 386.

173. Bazarın xarakteri satış kanallarına təsir edən hansı amillər qrupuna aiddir?

A) Məhsulun xüsusiyyətinə aid olan amillər

B) Bilavasitə vasitəçiləri xarakterizə edən amillər

C) Bazarın və ya istehlakçıların xüsusiyyətinə aid olan amillər

D) İstehsalçı müəssisənin xüsusiyyətlərini xarakterizə edən amillər

E) Nəqliyyat-tədarükat xərcləri amilləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 385.

174. Məhsulların vasitəçi müəssisələrdə saxlanması ilə əlaqədar olan xərcləri satış kanallarına təsir edən hansı amillər qrupuna aiddir?

A) Bilavasitə vasitəçiləri xarakterizə edən amillər

B) Məhsulun xüsusiyyətinə aid olan amillər

C) İstehsalçı müəssisənin xüsusiyyətlərini xarakterizə edən amillər

D) Bazarın və ya istehlakçıların xüsusiyyətinə aid olan amillər

E) Nəqliyyat-tədarükat xərcləri amilləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: A.T.Məmmədov. Marketinq. Bakı, 2014. səh. 382.

175. Məhsulun satılması məqsədi ilə bir və ya bir neçə potensial alıcı ilə müəssisənin nümayəndəsinin birbaşa əlaqəsi necə adlanır?

A) Reklam

B) Satışın stimullaşdmiması

C) İctimaiyyətlə əlaqə

D) Birbaşa marketinq

E) Şəxsi satış

Testin çətinlik dərəcəsi: orta

İstinad: Quliyev F.V. Marketinqin idarə edilməsi. Dərs vəsaiti. Bakı - 2018, "Kooperasiya" nəşriyyatı, səh 177.

176. Müəssisənin və onun məhsullarının imicinin qorunub saxlanılması və daha da yaxşılaşdırılması məqsədi ilə kütləvi informasiya vasitələrində onlara dair məlumatların yayılması prosesi necə adlanır?

A) Şəxsi satış

B) İctimaiyyətlə əlaqə

C) Reklam

D) Satışın stimullaşdmiması

E) Ticarət vasitəçiliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Quliyev F.V. Marketinqin idarə edilməsi. Dərs vəsaiti. Bakı - 2018, “Kooperasiya” nəşriyyatı, səh 177.

177. Haqqı ödənilməklə maraqlı şəxslər tərəfindən əmtəələr, xidmətlər və ideyalar haqqında informasiyaların yayılması prosesi necə adlanır?

A) Şəxsi satış

B) İctimaiyyətlə əlaqə

C) Birbaşa marketinq

D) Ticarət vasitəçiliyi

E) Reklam

Testin çətinlik dərəcəsi: asan

İstinad: Quliyev F.V. Marketinqin idarə edilməsi. Dərs vəsaiti. Bakı - 2018, “Kooperasiya” nəşriyyatı, səh 177.

178. İstənilən qiymət dəyişmələrində tələbin həcmi qəti dəyişmirsə tələbin elastikliyi nə qədər olar?

A) Tələb tam elastikdir (e = oo)

B) Tələb qeyri-elastikdir(e<l)

C) Tələb vahiddir (e=1)

D) Tələb elastikdir (e>l)

E) Tələb tam qeyri-elastikdir (e=0)

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Nizami Cəlal oğlu Qafarov, İbrahim Qədim oğlu Quliyev.
Qiymət və qiymətləndirmə. Ali məktəb tələbələri üçün dərs vəsaiti.
Bakı - 2017. səh 52.

179. Hnası müəssisənin əsas fəaliyyəti müştərilərin bilabasitə kapitalını
idarə etməkdır?

A) Trast şirkəti

B) Holdinq

C) Lombard

D) Kreditor bank

E) Milli bank

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznesin təşkili və idarə edilməsi /Dərslik.
Bakı «İqtisad Universiteti nəşriyyatı, 2011.s.97

180. Tələbin həcm dəyişmə sürətii, qiymətin dəyişmə sürəti ilə eyni, lakin əks istiqamətdə dəyişirsə tələbin elastikliyi hansı cavabda düz göstərilib?

A) Tələb elastikdir (e>l)

B) Tələb vahiddir (e=1)

C) Tələb tam elastikdir (e = oo)

D) Tələb qeyri-elastikdir(e<l)

E) Tələb tam qeyri-elastikdir (e=0)

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Nizami Cəlal oğlu Qafarov, İbrahim Qədim oğlu Quliyev.
Qiymət və qiymətləndirmə. Ali məktəb tələbələri üçün dərs vəsaiti.
Bakı - 2017. səh 52.

181. Geri qaytarılmasına zəmanət almadan sürətlə inkişaf edən kiçik innovasiya şirkətlərinə, yüksək mənfəət
almaq məqsədilə riskli vəsait qoymaq necə adlanır?

A) Aksiyoner maliyyələşməsi

B) Vençur maliyyələşdirməsi

C) Depozit qoyuluşu

D) Sponsorluq

E) Bank kreditləşməsi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Biznesin təşkili və idarə edilməsi /Dərslik.
Bakı «İqtisad Universiteti nəşriyyatı,  2011.s.89

182. Əgər alıcılar qiymət yüksəldikdə  əmtəədən tamamilə imtina edirlərsə tələbin elastikliyi nə qədərdir?

A) Tələb vahiddir (e=1)

B) Tələb tam qeyri-elastikdir (e=0)

C) Tələb qeyri-elastikdir(e<l)

D) Tələb tam elastikdir (e = oo)

E) Tələb elastikdir (e>l)

Testin çətinlik dərəcəsi: asan

İstinad: Nizami Cəlal oğlu Qafarov, İbrahim Qədim oğlu Quliyev.
Qiymət və qiymətləndirmə. Ali məktəb tələbələri üçün dərs vəsaiti.
Bakı - 2017. səh 52.

183. Təxminən bir tip, lakin müxtəlif növlü və modifikasiyalı mallar istehsalı necə adlanır?

A) Diversifikasiya

B) Differensiasiya

C) Şaquli inteqrasiya

D) Emercment

E) Dar ixtisaslaşma

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.A.Allahverdiyeva. Beynəlxalq marketinq. Bakı, 2010, səh 143.

184. Əsas etibarilə kifayət qədər maliyyə və digər vəsaitləri olmayan və öz səylərini kiçik, olduqca məhdud fəaliyyət sahəsində cəmləşdirən şirkətlərin tətbiq etdiyi strategiya necə adlanır?

A) Diversifikasiya

B) Şaquli inteqrasiya

C) Differensiasiya

D) Dar ixtisaslaşma

E) Emercment

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.A.Allahverdiyeva. Beynəlxalq marketinq. Bakı, 2010, səh 143.

185. Yeni məhsulların hazırlanmasını və dünya bazarına buraxılmasını, yeni fəaliyyət sahələrinə, yeni biznes sahələrinə yeridilməsi prosesi necə adlanır?

A) Diversifikasiya

B) Differensiasiya

C) Şaquli inteqrasiya

D) Dar ixtisaslaşma

E) Modul inteqrasiya

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.A.Allahverdiyeva. Beynəlxalq marketinq. Bakı, 2010, səh 143.

186. İstehsal-satış prosesinin şaquli silsiləsilə əlaqəli olan biznes sahələrinin mənimsənilməsi prosesi necə adlanır?

A) Dar ixtisaslaşma

B) Emercment

C) Differensiasiya

D) Diversifikasiya

E) Şaquli inteqrasiya

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.A.Allahverdiyeva. Beynəlxalq marketinq. Bakı, 2010, səh 143.

187. Iqtisadiyyatın müxtəlif sahələrində sahibkar fəaliyyətini həyata keçirən şirkətlərin birləşməsi hansı cavabda göstərilib?

A) Konqlomerat

B) Sinergiya

C) Emercment

D) Differensiasiya

E) Şaquli inteqrasiya

Testin çətinlik dərəcəsi: orta

İstinad: M.A.Allahverdiyeva. Beynəlxalq marketinq. Bakı, 2010, səh 143.

188. Bir təşkilatın əmtəə nişanının, müəssisə texnologiyalarının, idarəetmə sisteminin istifadəsi hüququnun müəyyən şərtlərlə digər təşkilata satışı və ya müvəqqəti verilməsi prosesi necə adlanır?

A) Lisenziya

B) Françayzinq

C) Lizinq

D) İnteqrasiya

E) Emercment

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vəliyev A.C.Beynəlxalq marketinq (ali məktəblər üçün
dərslik) Bakı – 2017, səh 217.

189. İlkin kapitalı iştirakçıların müəyyən
pay şəklində təqdim etdikləri vəsaitlə formalaşan və . İştirakçılar qoyduqları həmin pay çərçivəsində məsuliyyət daşıdığı təşkilat hansıdır?

A) İstehsal kooperativi

B) Səhmdar cəmiyyət

C) Əlavə məsuliyyətli
cəmiyyət

D) Məhdud məsuliyyətli cəmiyyət

E) Aksioner şirkət

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznesin təşkili və idarə edilməsi /Dərslik.
Bakı «İqtisad Universiteti nəşriyyatı, 2011.s.18

190. İstehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya müəyyən müddətə icarəyə vermək məqsədilə həyata keçirilən xidmət növü hansıdır?

A) Depozit

B) Subfrançayzinq

C) Lizinq

D) Standart  frençayzinq

E) Sinergiya

Testin çətinlik dərəcəsi: asan

İstinad: Biznesin təşkili və idarə edilməsi /Dərslik.
Bakı «İqtisad Universiteti nəşriyyatı,  2011.s.18

191. Giriş haqqı və satışdan faizin olmadığı françayzinq növü necə adlanır?

A) Sərbəst françayzinq

B) Lizinq

C) Qızıl françayzinq

D) Gümüş françayzinq

E) Standart  françayzinq

Testin çətinlik dərəcəsi: asan

İstinad: Vəliyev A.C.Beynəlxalq marketinq (ali məktəblər üçün
dərslik) Bakı – 2017, səh 221.

192. Düz istiqamətdə daşınan material axınlarının həcmi DA = 1500 ton,əks istiqamətdə daşman material axınlarının həcmi isə, AD = 1300 tondur. “Material axınlarının qeyri - bərabərlik əmsalı”  nəyə bərabərdir?

A) 1.5

B) 0.95

C) 1.15

D) 2

E) 3.24

Testin çətinlik dərəcəsi: çətin

İstinad: T.İmanov. Logistika. 1 hissə.  Bakı, 2005.səh. 322

193. Material axınlarının qeyri - bərabərlik əmsalı"  2 yə bərabərdir, əks istiqamətədə material axını 100 tondur. Düz istiqamətdə material axınını necəyə bərabərdir?

A) 100 ton

B) 200 ton

C) 50 ton

D) 2 ton

E) 98 ton

Testin çətinlik dərəcəsi: orta

İstinad: T.İmanov. Logistika. 1 hissə.  Bakı, 2005.səh. 323

194. Satış kanalının  məhsulunun adı,tipi, növünün secilməsi üçün aparılan ABC analiz hansı qaydalara əsaslanır?

A) Mörfi qaydalarına

B) Zipf   prinsipinə

C) Pareto qaydasına

D) Riçard qanununa

E) Qedel teoreminə

Testin çətinlik dərəcəsi: orta

İstinad: T.İmanov. Logistika. 1 hissə.  Bakı, 2005.səh. 324

195. İşçilərə ilkin təlimatı kim keçir?

A)  Əməyin mühafizə şöbəsinin mühəndisi

B)  Əməyin mühafizəsi şöbəsinin rəisi

C)  Sahə və ya işin rəhbəri

D)  Həmkarlar ittifaqı komitəsinin sədri

E)  Müəssisənin direktoru

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

196. İşçilərə ilkin təlimat harda keçirilir?

A) Baş mühəndisin yanında

B) İşçinin göndərildiyi sahədə

C) Həmkarlar ittifaqı komitəsində

D) Əməyin mühafizəsi otağında

E) Əməyin mühafizəsi şöbəsinin rəisinin yanında

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

197. İş yerlərində əmək şəraiti dəyişərsə və ya hər hansı bir bədbəxt hadisə baş verərsə bu zaman işçilərə hansı təlimat keçirilməlidir?

A) Təkrar təlimat

B) İlkin təlimat

C) Növbədənkənar təlimat

D) Birdəfəlik təlimat

E) Giriş təlimat

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi (məlumat kitabı). Bakı, 2003. Səh. 127

198. İş yerində təlimat öz növbəsində hansı təlimatlara bölünür?

A) İlkin, giriş və növbədənkənar

B) İlkin, vaxtaşırı, növbədənkənar və birdəfəlik

C) Giriş, vaxtaşırı, birdəfəlik və növbədənkənar

D) Giriş, vaxtaşırı və növbədənkənar

E) Giriş, ilkin, vaxtaşırı, birdəfəlik və növbədənkənar

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

199. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində gündəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 8 saatdan artıq olmamalıdır

B) 10 saatdan artıq olmamalıdır

C) 7 saatdan artıq olmamalıdır

D) 5 saatdan artıq olmamalıdır

E) 6 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

200. Normal əmək və istirahət rejiminə riayət edilməsinə uyğun 5 günlük iş həftəsində həftəlik normal iş vaxtının müddəti neçə saatdır?

A) 40 saatdan artıq olmamalıdır

B) 35 saatdan artıq olmamalıdır

C) 36 saatdan artıq olmamalıdır

D) 33 saatdan artıq olmamalıdır

E) 45 saatdan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: S.Məmmədov, İ.Cavadova, A.Bəkirov. Əmək münasibətini tənzimləyən sənədlər. Bakı, 2005. Səh. 233

201. Təhlükəli və zərərli amillər hansı qruplara bölünür?

A) Kimyəvi, bioloji və psixofizioloji

B) Sosioloji, kimyəvi, bioloji və psixofizioloji

C) Bioloji və psixofizioloji

D) Fiziki və  kimyəvi və psixofizioloji

E) Fiziki, kimyəvi, bioloji və psixofizioloji

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov.İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I-cild. Bakı, 2010. Səh. 456

202. İş yerlərində attestasiyanın keçirilməsi neçə müddətdən bir aparılır?

A) İki ildə bir dəfədən az olmayaraq

B) Dörd ildə bir dəfədən az olmayaraq

C)  Üç ildə bir dəfədən az olmayaraq

D) Beş ildə birdəfədən az olmayaraq

E)  İldə bir dəfədən az olmayaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. I cild. Bakı, 2010. Səh. 456

203. Qadınlar üçün əllə daşınan yüklərin yüklənib boşaldılması və daşınması zamanı çəkisi maksimum nə qədər olmalıdır ?

A) 25 kq-dan artıq olmamalıdır

B) 15 kq-dan artıq olmamalıdır

C) 30 kq-dan artıq olmamalıdır

D) 50 kq-dan artıq olmamalıdır

E) 10 kq-dan artıq olmamalıdır

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

204. Əl ilə yüklərin daşınması məsafəsi neçə metrdən artıq olduqda yüklərin daşınmasına icazə verilmir?

A) 80 metrdən artıq olduqda

B) 40 metrdən artıq olduqda

C) 60 metrdən artıq olduqda

D) 100 metrdən artıq olduqda

E) 120 metrdən artıq olduqd

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

205. Nə zaman yüklərin yüksəkliyə qaldırılmasına icazə verilir?

A) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

B) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 3 m-dən çox olmadıqda

C) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

D) Yük qaldırılan meydança pilləkanla təchiz olunmadıqda və meydançanın hündürlüyü 4 m-dən çox olmadıqda

E) Yük qaldırılan meydança pilləkanla təchiz olunduqda və meydançanın hündürlüyü 5 m-dən çox olmadıqda

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Neftqazçıxartma sənayesində təhlükəsizlik qaydaları. Bakı, 2005. Səh. 526

206. İstehsalat binalarında otaqların tavanı döşəmədən minimum nə qədər məsafədə olmalıdır?

A) 2 metrdən az olmamalıdır

B) 3 metrdən az olmamalıdır

C) 4 metrdən az olmamalıdır

D) 1 metrdən az olmamalıdır

E) 2,5 metrdən az olmamalıdır

Testin çətinlik dərəcəsi: orta

İstinad: Y.H.Bünyətov. Əməyin mühafizəsi. Məlumat kitabı. Bakı, 2003. Səh. 127

207. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

208. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Qoruyucu kəmərdən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

209. Nəfəs yollarının mühafizəsi üçün hansı mühafizə vasitələrindən istifadə olunur?

A) Şlanqlı əleyhqazlardan

B) Süzgəcli əleyhqazlar və qulaqcıqlardan

C) Süzgəcli, oksigenli əleyhqazlar və dəbilqədən

D) Resperatorlar, əleyhqazlar və eynəkdən

E) Resperator və əleyhqazlardan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

210. Günvurma nə vaxt baş verir?

A) Günəşli havada gün şüalarının altında olduqda

B) Yayda kölgəlikdə çox durduqda

C) Isti otaqda çox qaldıqda

D) İsti yay fəslində günəşli havada gün şüalarının təsiri altında çox durduqda

E) Qışda günəşli havada gün şüalarının təsiri altında çox durduqda

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Ətraf mühitin mühafizəsi haqqında qanunu Bakı 1999

211. Qapalı sınıqlar zamanı ilk tibbi yardım kimi nə etmək lazımdır?

A) Sadəcə həkimi gözləmək

B) Ağrıkəsici dərman vermək və tibb müəssisəsinə çatdırmaq

C) Şina qoyub tərpənməz vəziyyətdə saxlamaq, tibb müəssisəsinə çatdırmaq

D) Təmiz havaya çıxarmaqbintlə sarımaq

E) Deformasiya uğramış nahiyyəni düzləndirib bintlə sarımaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Tibb bacısının məlumat kitabı Bakı  2008

212. Bədbəxt hadisə nədir?

A) Texniki qurğuların dayanması, yaxud nasazlığı

B) İşçinin və ya işçilərin iş yerlərində alığı xəsarətdir

C) Texnoloji rejiminin pozulması

D) Nəzarət edilə bilməyən partlayış və yanğın

E) Təhlükəli maddələrin ətraf mühitə yayılması

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

213. İstehsalat təhlükəsi və ya zərərli amillərin təsirinin qarşısını alan və ya azaldan vasitələr necə adlanır?

A) Təhlükəsizlik vasitələri

B) Mühafizə vasitələri

C) Kollektiv vasitələri

D) Xilasetmə vasitələri

E) Xəbərvermə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Əməyin mühafizəsi və Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunları

214. Yanan metalları nə ilə söndürmək olar?

A) Xüsusi təyinatlı tozlarla

B) Ümumi təyinatlı tozlarla

C) Köpüklə

D) Su ilə

E) Buxarla

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

215. Gərginlik altında olan avadanlıqlarda baş vermiş yanğını söndürərkən ilk növbədə nə etmək lazımdır?

A) Bölməni hermetikləşdirmək

B) Qəza bölməsini və avadanlıqları cərəyandan ayırmaq

C) Bölməni su ilə doldurmaq

D) Koşma ilə üstünü bağlamaq

E) Bölməni köpüklə doldurmaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu Bakı-1997 Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları

216. Yanğın həyəcan siqnalı verilərkən hansı fəaliyyətləri yerinə yetirmək lazımdır?

A) İşi dayandırmaq, toplantı məntəqəsinə getmək və növbəti komandanı gözləmək

B) İşi davam etmək və heyətdən yanğının söndürülməsinə nümayəndə ayırmaq

C) İşi dayandırmaq, əşyaları götürmək, otaqları bağlayıb ərazini tərk etmək

D) Bölməni hermetikləşdirmək və sahil yanğınsöndürmə dəstələrini gözləmək

E) Yanğın yerini axtarmaq və onu söndürməyə başlamaq

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanunu (Bakı-10.06.1997) Respublikasında yanğın təhlükəsizliyi qaydaları

217. Süni tənəffüs hansı yollar ilə verilir?

A) Yalnız ağızdan-ağıza

B) Yalnız ağızdan-buruna

C) Ağızdan-ağıza, ağızdan-buruna

D) Bədəni masaj etməklə

E) Əl və ayağı hərəkət etdirməklə

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

218. Peşə xəstəliyi nədir ?

A) Əmək qabiliyyətini qismən itirməklə nəticələnən xəstəlik

B) Əmək qabiliyyətini müvəqqəti itirməklə nəticələnən xəstəlik

C) Vəzifəsini yerinə yetirərkən aldığı zərərli amillərin təsirindən yaranmış xəstəlik

D) Əmək qabiliyyətini tam itirməklə nəticələnən xəstəlik

E) Əmək qabiliyyətini 3 gündən az olmayaraq itirməklə nəticələnən xəstəlik

Testin çətinlik dərəcəsi: orta

İstinad: Müəssisələrdə texniki təhlükəsizlik və əməyin mühafizəsinin təşkilinə dair mühüm aspektlər. Bakı, 2008

219. Bədbəxt hadisə baş verən zamanı ilk növbədə iş rəhbərinin vəzifəsi:

A) Zərərçəkənə heç bir kömək etməməli və rəhbərliyə xəbər verməli

B) Həmkarlar ittifaqı təşkilatına xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

C) Sanitariya-epidemioloji xidmətinə xəbər verməli və tibb məntəqəsinə çatdırılmalı

D) Zərərçəkənə ilk tibbi yardım göstərilməli və tibb məntəqəsinə çatdırılmasını təşkil etməli və rəhbərliyə xəbər verməli

E) Müəssisənin rəhbərliyinə və zərər çəkənin evinə məlumat verməli

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

220. Zərərli istehsalat amillərinin təsiri nəticəsində yaranan xəstəliy:

A) Peşə xəstəliyi

B) Sarılıq xəstəliyi

C) Sətəlcəm xəstəliyi

D) Şəkər xəstəliyi

E) Qızılça xəstəliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Neft Sənayesində Əməyin Mühafizəsinin Vahid İdarəetmə Sistemi. Bakı, 2004

221. Hansı hündürlükdən başlayaraq"Yüksəklikdə görülən işlər"anlayışı qüvvəyə minir?

A) 3.0 m

B) 2.5 m

C) 5.0 m

D) 1.8m

E) 2.10 m

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qərarı ilə 2016-cı ildə təsdiq edilib. Hündürlükdə iş zamanı texniki təhlükəsizlik Qaydaları. Bakı, 2016

222. Kollektiv mühafizə vasitələri nədir?

A) Kənar şəxsləri qorumaq üçün tətbiq edilən vasitələr

B) Tək bir adamı qorumaq üçün tətbiq edilən vasitələr

C) Dəzgahları qorumaq üçün tətbiq edilən vasitələr

D) Bütün sex işçilərini qorumaq üçün tətbiq edilən vasitələr

E) İki və ya çox işçini qorumaq üçün tətbiq edilən vasitələr

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999

223. Təxliyyə (köçürmə) planları hansı binalarda tərtib olunur?

A) 10 nəfərdən çox insan olan

B) 100 nəfərdən çox insan olan

C) Hamısında

D) 17 nəfərdən çox insan olan

E) 27 nəfərdən çox insan olan

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

224. Yanğınsöndürmə vasitələrindən istifadə qaydalarını kimlər bilməlidirlər?

A) Sex rəisi

B) Fəhlələr və aparatçıla

C) Qulluqçular

D) Fəhlə və qulluqçuların hamısı

E) Ustalar və çilingərlər

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

225. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarına kimlər əməl etməlidir?

A) Fəhlə və qulluqçuların hamısı

B) Sex rəisi

C) Qulluqçular

D) Fəhlələr və aparatçılar

E) Ustalar çilingərlər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

226. Yanğın təhlükəsizliyinə aid olan normativ sənədlər:

A) Standartlar, yanğın təhlükəsizliyi normaları, qaydaları və təlimatları

B) Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə

C) Sanitariya-epidemioloji qaydalar haqqında Əsasnamə

D) Həmkarlar ittifaqının nizamnaməsi

E) Aktlar, xidməti yazılar və texniki təhlükəsizlik qaydaları

Testin çətinlik dərəcəsi: asan

İstinad: Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997

227. Məişət və iş otaqlarında hansı elektrik cihazlarından istifadə etmək qadagandır?

A) Slaydoskopdan, telefondan, printerdən

B) Kompyuterdən, printerdən. Proyektordan

C) Kompyuterdən, telefondan, printerdən, kondisionerdən

D) Yüksək tezlikli sobadan, elektrik qızdırıcı cihazlardan, elektrik su qəfədanından

E) Proektordan, kondisionerdən, slaydoskopdan

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

228. Fövqəladə hal baş verərsə hansı nömrəyə zəng etmək lazımdır?

A) 112

B) 104

C) 102

D) 103

E) 101

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Fövqaladə Hallar Nazirliyinin qaynar xətti

229. Binalarda yanğına qarşı nə olmalıdır?

A) Pilləkan qəfəsində dəmir qapı

B) Köçürmə sxemləri və işarələri, xəbərdarlıq plakatları, yanğınsöndürmə vəsitələri

C) Təlimatın kecirilməsi üçün xüsusi otaq

D) Dəhlizdə qumla təchiz edilmiş yanğın lövhəsi

E) Mərtəbələrdə əlavə nərdivanla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

230. Yanğın baş verən zaman ilkin yanğınsöndürmə vasıtələrından kimlər istifadə etməlidir?

A) Sex rəisi

B) Növbə rəisi

C) Fəhlə və qulluqçular

D) Texnoloq

E) Yanğın söndürmə komandiri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

231. Yanğın aşkar etdikdə nə etməli?

A) Dərhal bələdiyyəyə xəbər vermək

B) Dərhal polis mühafizə bölməsinə xəbər vermək

C) İcra hakimiyyətinə xəbər vermək

D) Dərhal yanğından mühafizə bölməsinə xəbər vermək

E) Dərhal əmək müfəttişliyinə xəbər vermək

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasında yanğın təhlükəsizliyi qaydaları. Bakı, 2001

232. Fərdi muhafizə vasitələri hansılardır?

A) Tənəffüs orqanları mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri və tibbi mühafizə vasitələri

B) Görmək və eşitmək üçün mühafizə vasitələri

C) Danışmaq üçün mühafizə vasitələri, dəri səthi mühafizə vasitələri

D) Anlatmaq üçün mühafizə vasitələri, ayaq üçün mühafizə vasitələri

E) İtdən və ilandan qorunmaq üçün mühafizə vasitələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikası Əmək Məcəlləsi. Bakı, 1999